Nurəddin Mirzəxanlı

## Zəlimxan!

*Azərbaycanın xalq şairi*
*Zəlimxan Yaqubun əziz xatirəsinə.*

Kara gəlmir səbir də,
Qələm də, söz də, pir də!..
Ana yurduna bir də
Heç vaxt dəyməz ayağın!
Dağdan ağırdı dağın,-
Zəlimxan!

Səsin qulaqlardadı,
Təbin bulaqlarda dı!
Söz-söz dodaqlardadı
Yadigar fikir bağın!
Dağdan ağırdı dağın,-
Zəlimxan!

Heyrətsən "Şur" içində,
Atəşsən Kür içində...
Zülmətdi nur içində
Sənə həsrət otağın!
Dağdan ağırdı dağın,-
Zəlimxan!

Paxıla qəm zirvəsən,
Nankora kəm zirvəsən...
Göyə həmdəm zirvəsən,
Yoxdu, yoxdu ortağın!
Dağdan ağırdı dağın,-
Zəlimxan!

Başıma bu dünya dar,
Qəlbimə yağdı bu qar!..
"Od aldığım ocağlar"-
Çırağındı,çırağın!
Dağdan ağırdı dağın,-
Zəlimxan!

Gələr-yaz da ağlayar!
Dinər- saz da ağlayar!
Zaman-zaman çağlayar,
Axar hikmət bulağın!
Dağdan ağırdı dağın,-
Zəlimxan!

Zəkan Xəzərdən dərin,
Üzə güldü hünərin!
Mübarəkdi zəfərin!
Mübarəkdi növrağın!
Dağdan ağırdı dağın,-
Zəlimxan!

El-el doğmadı adın,
Rəhmətlikdi ustadın!
Borçalıya sığmadı
Çindən gəldi sorağın...
Dağdan ağırdı dağın,-
Zəlimxan!

Yazıq gəzdiyin yaldı!
Yazıq gördüyün saldı!
Üzünə həsrət qaldı
Həm aranın, həm dağın!
Dağdan ağırdı dağın,-
Zəlimxan

Dilimdəsən ağı tək,
Sənətin dayağı tək!
Yurdunun bayrağı tək
Enməz fikir bayrağın!
Dağdan ağırdı dağın,-
Zəlimxan!

Ölümə vermədin can,
Sağsan,ey kamil insan!
Anandı Azərbaycan,
Oğlusan bu torpağın!
Dağdan ağırdı dağın,-
Zəlimxan!